Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

MÜVƏKKİL
HÜQUQ MƏRKƏZİ

Səməd Vəkilov

# AZƏRBAYCAN FOLKLOR NÜMUNƏLƏRİNİN HÜQUQİ QORUNMASI

*(milli və beynəlxalq qanunvericilik sistemində)*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

Zərdabi Nəşr

Bakı – 2020

*Kitab Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin maliyyə dəstəyi ilə "Azərbaycan xalqının qeyri-maddi mədəni irsinə yönəlik təhdidlərin aradan qaldırılması" layihəsi çərçivəsində AMEA-nın Folklor İnstitunun 07.02.2020-ci il tarixli Elmi Şurasının Qərarı ilə (Prtokol №1) çap olunur.*

**Elmi redaktorlar:** ***Seyfəddin Rzasoy,*** *professor*
***Aydın Kərimov,*** *hüquqşünas*

**Məsləhətçi:** ***Sevil Yusifova,*** *folklorşünas*

**Səməd Vəkilov. "Azərbaycan folklor nümunələrinin hüquqi qorunması"** (milli və beynəlxalq qanunvericilikdə). Bakı, "Zərdabi Nəşr" MMC nəşriyyatı 2020, 168 səh.

Kitab Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin əsasını təşkil edən folklorunun (qeyri-maddi mədəni irsin) hüquqi qorunmasından bəhs edir.

Kitab aidiyyatı peşə sahibləri, elmi işçilər, ali təhsil müəssisələrinin tələbələri və elmi ictimaiyyət üçün nəzərdə tutulub.

**ISBN: 978-9952-526-86-8**

© Səməd Vəkilov, 2020

*Müqəddəs torpaqlarımızın işğaldan*
*azad edilməsi uğrunda şəhid olmuş,*
*milli iftixarımız olan*
*Azərbaycan əsgərlərinin*
*parlaq xatirəsinə...*

## Ön söz

"Folklor nümunələrinin hüquqi qorunması (milli və beynəlxalq qanunvericilik sistemində)" kitabı Azərbaycan xalqının mənəvi dəyərlər sisteminin əsasını təşkil edən folklorumuzun mühafizəsi, tədqiqi və gələcək nəsillərə çatdırılmasının elmi-nəzəri və praktik aspektlərini özündə ehtiva edən elmi əsərdir. Təsadüfi deyil ki, kitab AMEA Folklor İnstitutunun Elmi Şurasının 07.02.2020-ci il tarixli qərarı ilə çap olunmuşdur.

Kitabda Azərbaycançılıq ideologiyasının qorunmasına Milli Təhlükəsizlik konsepsiyası çərçivəsində yanaşılması xüsusilə böyük əhəmiyyət daşıyır. Müəllif hesab edir ki, xalqın mənəvi dəyərlərinin qorunması onun milli təhlükəsizliyinin əsas prioritetini təşkil edir. Kitabda folklor nümunələrinin qorunmasına dair YUNESKO tərəfindən qəbul edilmiş konvensi-

yalar və digər sənədlər o cümlədən dünyada folklor nümunələrinin qorunmasına dair aparılan hərəkat çərçivəsində milli səviyyədə qəbul edilən sənədlər geniş şəkildə öz əksini tapmışdır.

Kitabın müəllifi S.Vəkilov folklor nümunələrinin hüquqi qorunması ilə bağlı apardığı tədqiqat zamanı qanunvericiliyin təkmilləşməsi və folklorşünaslığın zəruri anlayışlarının qanunvericilikdə təsbit olunmasını xüsusi qeyd edir. O, folklorşünaslıq üçün xüsusi əhəmiyyət daşıyan söyləyici, toplayıcı və tərtibçi anlayışlarını təsbit etməklə qanunvericiliyin təkmilləşməsi zərurətini vurğulayır. Sözügedən anlayışlara verilən elmi təriflər folklorşünaslıq və hüquqi nöqteyi-nəzərdən elmi dəyər daşıyır.

Hüquqşünas Səməd Vəkilovun 2009-cu il tarixdə AMEA-nın Folklor İnstitutunda hüquq müşaviri vəzifəsində çalışarkən hazırladığı "Folklor nümunələrinin hüquqi qorunması və milli reyestrinin aparılması" Strategiyası (20 oktyabr 2009-cu il tarixdə AMEA-nın Folklor İnstitunun Elmi Şurasının 6 saylı qərarı ilə təsdiq edilmişdir) folklor nümunələrinin hüquqi qorunmasına dair ilk sistemli araşdırma və normativ aktdır. Sözügedən sənəd 29 sentyabr 2010-cu il tarixdə (№17/23) AMEA-nın Rəyasət Heyəti tərəfindən təsdiq edilərək, Folklor İnstitutu və bu sahə ilə məşğul olan digər qurumlar üçün normativ akta çevrilmişdir.



Sonrakı dönəmlərdə S.Vəkilov elmi dərgilərdə bu mövzuda bir neçə məqalə çap etdirmiş və bu istiqamətdəki tədqiqatlarını dərinləşdirmişdir. Folklor İnstitutunun elmi dərgisi olan "Dədə Qorqud" jurnalında çap olunmuş "Folklor nümunələrinin hüquqi qorunması milli və beynəlxalq qanunvericilikdə" (2009, № 4) adlı məqaləsində hazırkı kitabda qaldırılmış problemlər məhz elmi-nəzəri və praktik aspektdən araşdırılmışdır. Müəllifin həmçinin "Saxta folklor mətinləri süni mədəniyyətlər yaradır" elmi məqaləsində folklor tədqiqatçıları üçün maraqlı materiallar mövcuddur. Həmin məqalədə folklorşünasların Novruz bayramı ilə bağlı cəmiyyətə süni şəkildə aşılamaq istədiyi məsələlərdən söhbət açılır. Müəllif göstərir ki, bir sıra tədqiqatçılar Novruzla bağlı bilavasitə sahə araşdırmaları ilə məşğul olmaq əvəzinə, kabinetlərdə oturub öz təxəyyüllərinin məhsullarını Novruz reallıqları adı altında ictimai fikrə ötürməklə məşğuldurlar.

S.Vəkilov göstərir ki, folklor nümunələrinin hüquqi qorunmasının milli və beynəlxalq qanunvericilik çərçivəsində öyrənilməsi, hüquqi qorunmasına dair prioritetlərin və strateji hədəflərin müəyyən edilməsi qeyri-maddi mədəni irsin qorunmasında ən vacib və aktual məsələdir. Bu baxımdan, kitabda folklor tədqiqatları ilə bağlı söyləyici, toplayıcı və tərtibçinin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı irəli

sürülən fikirlər folklorşünaslığın gələcək inkişafında yeni perespektivlər açacaqdır.

Elmi dəyərini nəzərə alaraq qeyd etmək lazımdır ki, folklor nümunələrinin hüquqi qorunmasına dair bu əsər folklor tədqiqatçıları üçün vacib mənbə olmaqla bərabər elmi ictimaiyyət üçün gözəl töhfədir.

**Prof. Seyfəddin RZASOY,**
*AMEA Folklor İnstitutunda*
*Mifologiya şöbəsinin müdiri*



# 1. Azərbaycan xalqının folkloru (qeyri-maddi mədəni irsi) onun milli ideologiyasının və milli özünəməxususluğunun əsası kimi

Çoxəsrlik zəngin mədəni irisə malik olan Azərbaycan xalqının folkloru (qeyri-maddi mədəni irsi) onun milli özünəməxsusluğunun əsasını təşkil edir. Qloballaşma fonunda milli özünəməxsusluğu ehtiva edən folklor nümunələrinin mühafizəsi, tədqiqi və gələcək nəsillərə çatdlrlması mühüm əhəmiyyət daşıyır. Azərbaycan xalqı çağdaş dönəmdə müstəqil dövlətini bərpa etdikdən sonra özünəməxsusuluğunun qorunması və milli təhlükəsizliyini təhdid edən halların aradan qaldırılmasını starteji milli hədəfi müəyyən etmişdir.

Azərbaycan dövlətinin qəbul etdiyi qanunvericilik (milli və beynəlxalq) sisitemi dünyanın ünversal mədəni dəyərlərinə hörmət hissini aşılamaqla bərabər milli dəyərlərinin qorunmasını qarşısına məqsəd qoymuşdur.

Azərbaycan Respublikası həmçinin milli təhlükəsizlik siyasətinin əsas istiqamətləri müəyyən edilərkən elm, təhsil, mədəniyyət siyasəti və mənəviyyatın qorunmasına xüsusi vurğulayaraq ***Azərbaycan xalqının mədəni irsinin, maddi və mənəvi dəyərlərinin mühafizəsinə***, onun mədəni tələbatlarının ödənilməsi vasitələrinin və elmi-texniki potensialının daxili və xarici təhdidlərdən qorunmasına, mütərəqqi daxili və beynəlxalq inkişafdan bəhrələnməsinə yönəlməsi strateji hədəf kimi müəyyənləşdirmişdir. Azərbaycan Respublikasının milli maraqlarının əsas istiqamətləri müəyyən edilərkən Azərbaycan xalqının vahidliyinin qorunub saxlanılması, ***azərbaycançılıq ideyasının təşviqi, həmçinin dünya azərbaycanlılarının daşıdığı dəyərlərə əsaslanan milli özünəməxsusluğun və həmrəyliyin möhkəmləndirilməsi***, Azərbaycan xalqının mədəni-tarixi irsinin və mənəvi dəyərlərinin qorunması, eləcə də ümumbəşəri dəyərlərlə zənginləşdirilməsi, dilinin, özünüdərk, vətənpərvərlik və milli iftixar hissinin, intellektual potensialının inkişaf etdirilməsi əsas hədəf kimi götürülmüşdür.

(Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası) Azərbaycan xalqının özünəməxsusluğunun qorunması və təbliği problemini özündə ehtiva etməklə onun iki istiqamətini müəyyən etmişdir.

1) *Azərbaycan xalqının mədəni irsinin (folklor və qeyri-maddi mədəni irs), maddi və mənəvi dəyərlərinin mühafizəsi;*

*2) Azərbaycançılıq ideyasının təşviqi, milli özünəməxsusluğun möhkəmləndirilməsi.*



Azərbaycan Respublikasının Prezidentinin (23 may 2007-ci il, № 2198) sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyası Azərbaycan Respublikasının milli qanunvericilik sisteminə daxil olan ən vacib sənədlərdən biridir. Sözügedən konsepsiya uzunmüddətli, davamlı fəaliyyət tələb edən bir strategiyadır. Konsepsiyanın 2-ci bölməsi Azərbaycan Respublikasının milli maraqlarına həsr edilmişdir. Sənəddən məlum olmuşdur ki, Azərbaycanın milli maraqlarının əsas istiqamətlərindən biri də böyük bir coğrafiyanı əhatə edən dünya azərbaycanlılarının bölüşdüyü dəyərlərə əsaslanan milli özünəməxsusluğun möhkəmləndirilməsidir. Yuxarıda qeyd edildiyi kimi, Azərbaycan xalqının milli özünəməxsusluğunun ən vacib konponenti onun mədəni irsi, o cümlədən, qeyri-maddi mədəni irsin mayasını təşkil edən folklorudur. Bu mənada Azərbaycan xalqının folklor nümunələrinin hüquqi qorunması problemi Azərbaycan Respublikasının Milli Təhlükəsizlik Konsepsiyasının əsas hədəflərindən biri hesab olunur.

Hörmətli oxucu,

“Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında” Azərbaycan Respublikası Qanununun 18-ci və 19-cu maddələrinə uyğun olaraq müəlliflik hüququnun qorunması məqsədilə əsərin tam mətni ilə Kitabxananın oxu zalında tanış ola bilərsiniz.

